**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Şükürov Qasım Adəm oğlu, Əhədov Fuad Abbas oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 159 və 162 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar İmişli rayonu, Yalavac kənd sakini Şükürov Qasım Adəm oğlu və Mirişov Mirnaib Mahmud oğlu, habelə Bəhrəmtəpə qəsəbəsinin sakini Əhədov Fuad Abbas oğlu və digərləri 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, dairə seçki komissiyasında səsvermənin nəticələri rəsmiləşdirilərkən bəzi qanun pozuntularının baş verməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürərək, müraciətlər qanunla müəyyən olunmuş müddətdə, tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırmışdır.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, dairə seçki komissiyası məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokollarındakı məlumatları ümumiləşdirərək bələdiyyə üzrə DSK protokollarını seçki qanunvericiliyinin tələblərinə müvafiq olaraq tərtib etmişdir. Ona görə də iddia edilən hallar sübuta yetirilmədiyindən və öz təsdiqini tapmadığından müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. İmişli rayonu, Yalavac kənd sakini Şükürov Qasım Adəm oğlu və Mirişov Mirnaib Mahmud oğlunun, habelə Bəhrəmtəpə qəsəbəsinin sakini Əhədov Fuad Abbas oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 159 və 162 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |

Validə Kazımova

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Almas Qəhramanlı

Oktay Hümbətli